*Azərbaycan Ordusu, Azərbaycan əsgəri bilməlidir ki, ölkəmizin ərazi bütövlüyü nəyin bahasına olursa-olsun, bərpa edilməlidir.*

**Heydər ƏLİYEV**




# AZƏRBAYCAN ORDUSU

AZƏRBAYCAN RESPUBLİKASI MÜDAFİƏ NAZİRLİYİNİN ORQANI

Qəzet 1992-ci il fevralın 11-dən çıxır    8 iyun 2019-cu il  № 44 (2361)    Qiyməti 30 qəpik


## Z.Ə.Həsənovun "Şöhrət" ordeni ilə təltif edilməsi haqqında

### Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 23-cü bəndini rəhbər tutaraq qərara alıram:

Azərbaycan Respublikası Silahlı Qüvvələrinin döyüş qabiliyyətinin artırılmasında xidmətlərinə görə Zakir Əsgər oğlu Həsənov "Şöhrət" ordeni ilə təltif edilsin.

**İlham Əliyev**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı şəhəri, 5 iyun 2019-cu il.

## ABŞ Konqresinin üzvü 28 May - Respublika Günü münasibətilə bəyanatla çıxış edib

ABŞ Konqresinin Nümayəndələr Palatasının iclasında Alabama ştatını təmsil edən konqresmen Robert Aderholt (Respublikaçı) Azərbaycan Xalq Cümhuriyyətinin qurulmasının 101 illiyi münasibətilə bəyanatla çıxış edib.

Bəyanatda bildirilir ki, 1918-ci il mayın 28-də Azərbaycan Milli Assambleyası İstiqlal Bəyannaməsini qəbul edərək müsəlman Şərqində ilk dünyəvi parlament demokratiyası olan Azərbaycan Xalq Cümhuriyyətinin əsasını qoyub.

Bəyanatda 1920-ci ildə bolşeviklərin Azərbaycanı işğal edərək sovet hökumətinin əsasını qoyduğu, Azərbaycanın zor tətbiq edilməklə Sovet İttifaqına birləşdirildiyi və bir neçə onillik ərzində sovet rejiminin təzyiqləri altında əziyyət çəkdiyi diqqətə çatdırılıb. Həmçinin Sovet İttifaqının çöküşündən sonra 1991-ci ildə Azərbaycan Respublikasının müstəqilliyini bərpa etdiyi vurğulanıb. Qeyd edilib ki, ABŞ 1991-ci il dekabrın 25-də Azərbaycan Respublikasının müstəqilliyini tanıyıb. İki ölkə arasında diplomatik münasibətlər 1992-ci il fevralın 19-da qurulub.

Azərbaycanın kommunist imperiyasının dağılmasından sonra ABŞ-ın güclü və etibarlı müttəfiqinə çevrildiyini vurğulayan konqresmen R.Aderholt bildirib ki, bu gün Azərbaycan ABŞ-ın etibarlı tərəfdaşı olmaqla yanaşı, Qafqazda və Mərkəzi Asiyada mühüm rol oynayır. Azərbaycan 2001-ci il 11 sentyabr terror hücumlarından sonra ABŞ-a təmənnasız yardım göstərən ilk ölkələrdən biri olub. ABŞ-ın ən yaxın müttəfiqi İsrail ilə Azərbaycanın güclü dostluq və tərəfdaşlıq münasibətləri mövcuddur. Azərbaycan NATO-nun "Sülh Naminə Tərəfdaşlıq" proqramının iştirakçısı kimi, 2002-ci ildən etibarən NATO-nun Əfqanıstanda sülhməramlı əməliyyatlarına dəstək verir, missiyaya yardım məqsədilə hərbi kontingentlə təmsil olunur.

*15 İyun - Milli Qurtuluş Günüdür*

Azərbaycan Prezidenti İlham ƏLİYEV:

# Heydər Əliyev siyasəti Azərbaycanda yaşayır, davam etdirilir, zənginləşdirilir



*Heydər Əliyev böyük tarixi şəxsiyyət idi. 1969-cu ildən etibarən fəaliyyəti sevdiyi Azərbaycanın bütün sahələr üzrə dinamik inkişafını təmin etmək olmuşdu. Sabiq SSRİ-nin sərt imperiya rejimi xalqını, millətini, ittifaq tərkibində olsa da, dövlətini sevən bir insanın fəaliyyətini yolundan saxlamağa qadir deyildi.*

Həmin illərdə Azərbaycanda ibtidai hərbi məktəb yaratmaq üçün olduqca çətinliklərlə üzləşildi. Mərkəz Azərbaycanda belə bir məktəbin yaradılmasına qətiyyətlə mane olmaq istəyirdi. Böyük siyasi xadim olan Heydər Əliyev bütün iradları susdurmağı bacardı və 1971-ci ildə Bakıda C.Naxçıvanski adına ibtidai hərbi məktəb yaradıldı. Məktəb bu gün fəaliyyətini C.Naxçıvanski adına Hərbi Lisey kimi davam etdirir. Bu məktəbin məzunları arasında onlarla general, yüzlərlə polkovnik vardır. Neçə on illər əvvəl yaradılan Hərbi liseyin Ermənistanın Azərbaycana qarşı ərazi iddiasıyla elan edilmədən başlayan müharibədə nə səviyyədə gərəkli olduğunu şərh etməyə ehtiyac yoxdur.

Ulu Öndərin rəhbərlik etdiyi illərdə Azərbaycanın mədəniyyətinin, incəsənətinin, ədəbiyyatının inkişafında bir coşğunluq yarandı. Dahi rəhbər bu istiqamətlərdə də milli xarakter əsasında dönüş yaradılmasına olduqca gərəkli zəmin yaratdı. Neçə-neçə ədəbiyyat, incəsənət fədaisinin abidəsinin ucaldılması, adının əbədiləşdirilməsi xalqa, millətə müqayisəyəgəlməz xidmət kimi dəyərləndirilməlidir.

Sovet hökuməti Azərbaycanda milli azadlıq hərəkatını boğmaq üçün böyük qətliama hökm verdi - 1990-cı ilin 20 yanvarında Bakıda, eləcə də digər şəhərlərdə qırğınlar törətdi. Onda Heydər Əliyev çox ciddi təqiblərə, təhlükələrə baxmayaraq, Azərbaycanın Moskvadakı daimi nümayəndəliyində qətiyyətli, kəskin çıxışı ilə bu faciəni törədənlərin cəzalandırılmasını tələb etdi, buna siyasi qiymət verilməsinin zəruriliyini bildirdi.

Azərbaycan Xalq Cümhuriyyətinin süqutu xalqın azadlıq, müstəqillik ideyalarını söndürə bilməmişdi, xalq mübarizə aparırdı. İmperiyanın təqiblərinə baxmayaraq, milli-azadlıq hərəkatı müəyyən mərhələlərlə davam etməkdəydi. Bu mübarizə 1991-ci ilin oktyabrında müstəqillik haqqında Konstitusiya Aktının qəbul edilməsinə səbəb oldu - Azərbaycanın dövlət müstəqilliyi bərpa edildi...

Azərbaycanın dövlət müstəqilliyi bərpa olunsa da, hakimiyyətsizlik hökm sürürdü, separatçılıq baş qaldırmışdı. Bunlar respublikada milli qarşıdurmaya, real dövlət çevrilişinə şərait yaratmışdı. Onda xalq qətiyyətlə ulu öndər Heydər Əliyevi hakimiyyətə dəvət etdi. Ulu Öndər hakimiyyətə qayıtdı. Dövlət çevrilişinin qarşısı alındı. Qısa müddətdə ordu quruculuğunda əsaslı islahatlar aparıldı - yerli müdafiə batalyonları buraxıldı, orduda vahid komandanlıq yaradıldı.

**(Ardı 2-ci səhifədə)**

## Azərbaycan Prezidenti İlham ƏLİYEV:

# Heydər Əliyev siyasəti Azərbaycanda yaşayır, davam etdirilir, zənginləşdirilir



(Əvvəli 1-ci səhifədə)

Ulu Öndərin uzaqgörən siyasəti neçə-neçə beynəlxalq müqavilənin, bu sıradan Bakı-Tbilisi-Ceyhan neft kəmərinin imzalanmasıyla nəticələndi, Azərbaycanın iqtisadi inkişafına şərait yarandı...

1993-cü il müasir Azərbaycanın tarixində dönüş nöqtəsi oldu; Azərbaycanda sabitlik təmin edildi, ölkə inamla irəliyə getməyə başladı. Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev 28 May - Respublika Günü münasibəti ilə keçirilən rəsmi qəbulda deyib: "Ulu öndər Heydər Əliyevin xalq, dövlət qarşısında misilsiz xidmətləri vardır. Onu da bildirməliyəm ki, 1993-cü ilə qədər müstəqilliyimiz formal xarakter daşıyırdı, ölkəmiz müstəqil siyasət apara bilmirdi. Heydər Əliyevin xalq qarşısında xidmətlərindən biri də o idi ki, Azərbaycan əsl müstəqillik yoluna qədəm qoydu. Həm siyasi, həm iqtisadi, həm də digər sahələrdə çox ciddi islahatlar aparılmağa başlanmışdı. Nizami ordu yaradılmışdı, ölkəmizə böyük həcmdə xarici sərmayə gəlməyə başlamışdı, dövlətçiliyin əsasları qoyulmuşdu, azərbaycançılıq ideologiyası rəsmi ideologiya kimi qəbul edilmişdi. Bir sözlə, məhz o illərdə Azərbaycanın strateji inkişaf istiqamətləri müəyyən edildi".

Prezident İlham Əliyev qeyd edib ki, bu gün Azərbaycan strateji inkişaf istiqamətlərini əsas tutaraq bölgədə, dünyada dəyişən vəziyyətə uyğun olaraq öz inamlı siyasətini aparır. Bu gün ölkəmiz müstəqil siyasət apararaq, milli maraqların təmin olunmasında çox böyük uğurlar qazanıb. "2003-cü ildən bu günə qədər Heydər Əliyev siyasəti Azərbaycanda yaşayır, davam etdirilir, zənginləşdirilir. Əlbəttə ki, o vaxtdan bu günə qədər çox böyük işlər görülüb, ancaq, eyni zamanda, dünya da, bölgə də dəyişib. Dünyada, bölgədə yeni təhlükə mənbələri üzə çıxır, yeni çağırışlar meydana gəlir. Əlbəttə, biz həmişə çalışırıq və çalışmalıyıq ki, ölkəmizi mümkün olan risklərdən qoruya bilək. Son illərin təcrübəsi onu göstərir ki, biz buna müvəffəq ola bilmişik", - deyə Azərbaycan Prezidenti vurğulayıb.

Qayıdış Günü tarixi gündür, tarixdir. Həmin gün azərbaycançılığın təntənəsi kimi yaşanıldı. Bu təntənəni xalq yaşatdı.

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin dediyi kimi, "Mən həmişə fəxr etmişəm, bu gün də fəxr edirəm ki, mən azərbaycanlıyam", - deyən Heydər Əliyevin siyasəti bəşəri siyasət kimi Azərbaycanda yaşayır, davam etdirilir, zənginləşdirilir...

**Şəbnəm BEHBUDZADƏ**

# Müdafiə Nazirliyinin Baş İdarələrindən birinin Komanda İdarəetmə Mərkəzinin yeni inzibati binasının açılışı olub

*Azərbaycan Respublikasının Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı cənab İlham Əliyevin təsdiq etdiyi Azərbaycan Ordusunun modernizasiyası planına əsasən, həyata keçirilən fəaliyyətlər davam etdirilir. İyunun 6-da Müdafiə Nazirliyinin Baş İdarələrindən birinin Komanda İdarəetmə Mərkəzinin yeni inzibati binasının açılış mərasimi keçirilib.*



Müdafiə Nazirliyi Mətbuat Xidmətinin məlumatına əsasən, mərkəzin fəaliyyəti və xidmətin təşkili barədə Müdafiə naziri general-polkovnik Zakir Həsənova brifinq təqdim olunub. Məruzə olunub ki, Mərkəz yüksək texnologiyalı bütün kommunikasiya xətləri və digər zəruri avadanlıqlarla təchiz edilmiş inzibati və xidməti iş otaqlarından ibarətdir.

Komanda İdarəetmə Mərkəzinin əsas təyinatı bilavasitə tabelikdə olan qüvvə və vasitələrin dayanıqlı idarə edilməsi, digər qoşun növləri ilə qarşılıqlı əlaqənin təmin olunması, qoşunlardan və qərargahlardan daxil olan məlumatların təhlil olunaraq yuxarı komandanlığa təqdim edilməsidir.

Hər bir istiqamət üzrə əməliyyat şəraiti optik-elektron müşahidə vasitələri ilə daim nəzarətdə saxlanılır, hava və suüstü şəraitə nəzarət isə qoşun növlərinin qüvvə və vasitələri ilə qarşılıqlı fəaliyyətdə fasiləsiz həyata keçirilir.

# Müdafiə Nazirliyi Mətbuat Xidmətinin məlumatı

## Ermənistan silahlı birləşmələri atəşkəs rejimini pozub

*7 iyun 2019-cu il.*

Ermənistan silahlı qüvvələrinin bölmələri cəbhənin müxtəlif istiqamətlərində sutka ərzində atəşkəs rejimini 30 dəfə pozub.

Ermənistan Respublikası Noyemberyan rayonunun Şavarşavan, Voskevan kəndlərində və adsız yüksəkliklərdə yerləşən mövqelərdən Qazax rayonunun Qaymaqlı, Quşçu Ayrım kəndlərində yerləşən mövqelərimiz atəşə tutulub.

Tərtər rayonunun işğal altında olan Göyarx, Çiləbürt, Yarımca, Ağdam rayonunun Tağıbəyli, Şıxlar, Qaraqaşlı, Şirvanlı, Kəngərli, Sarıcalı, Acarlı, Xocavənd rayonunun Kuropatkino kəndləri yaxınlığında, həmçinin Goranboy, Tərtər və Ağdam rayonları ərazisindəki adsız yüksəkliklərdə yerləşən mövqelərdən də ordumuzun mövqeləri atəşə tutulub.

# Azərbaycanın Müdafiə naziri MDB Müdafiə Nazirləri Şurasının növbəti iclasında iştirak edib



İyunun 5-də Rusiya Federasiyasının Anapa şəhərində Müstəqil Dövlətlər Birliyi iştirakçı-dövlətlərinin Müdafiə Nazirləri Şurasının iclası keçirilib. Azərbaycan Respublikasının Müdafiə naziri general-polkovnik Zakir Həsənov iclasda iştirak edib.

Müdafiə Nazirliyi Mətbuat Xidmətinin məlumatına əsasən, iclasdan əvvəl MDB iştirakçı-dövlətlərin müdafiə nazirləri Böyük Vətən müharibəsində həlak olanların xatirəsinə ucaldılmış memorialı ziyarət edərək önünə əklil və gül dəstələri qoyub, qəhrəmanların xatirəsini ehtiramla yad ediblər.

İclasda MDB çərçivəsində hərbi əməkdaşlıq məsələlərinin müxtəlif aspektləri və qarşıda duran məsələlər müzakirə olunub.

# Müdafiə Sənayesi Nazirliyi ilə İtaliyanın “Leonardo” şirkəti arasında əməkdaşlıq məsələləri müzakirə olunub

İyunun 4-də Müdafiə Sənayesi nazirinin müavini Yəhya Musayev İtaliyanın aparıcı müdafiə sənayesi şirkətlərindən olan "Leonardo"nun baş direktoru Lorenzo Marianinin rəhbərlik etdiyi nümayəndə heyəti ilə görüşüb.

Müdafiə Sənayesi Nazirliyinin (MSN) mətbuat xidmətindən AZƏRTAC-a bildiriblər ki, görüşdə Yəhya Musayev Azərbaycan ilə İtaliya arasında ikitərəfli münasibətlərin yüksək səviyyədə olduğunu məmnunluqla qeyd edib. Nazir müavini MSN-in fəaliyyət istiqamətlərindən və əldə olunan uğurlardan danışıb. Yəhya Musayev "Leonardo" şirkətinin ötən il Bakıda keçirilən "ADEX-2018" sərgisində iştirakından məmnunluğunu bildirib.

Görüşdə MSN ilə "Leonardo" şirkəti arasında hərbi-texniki sahədə birgə layihələrin həyata keçirilməsi müzakirə edilib. "Leonardo" şirkətinin məhsulu olan reaktiv təlim-məşq təyyarələrinin istehsalı və texniki xidmətlərin göstərilməsi ilə bağlı birgə layihələrin icrası ətrafında geniş fikir mübadiləsi aparılıb. Bu istiqamətdə hər iki tərəfin ekspertləri tərəfindən danışıqların davam etdirilməsinə dair razılıq əldə olunub.

# Ramazan bayramı münasibətilə Azərbaycan Qarabağ Müharibəsi Əlilləri, Veteranları və Şəhid Ailələri İctimai Birliyinin bir qrupu ilə görüş keçirilib

## Ali Baş Komandan adından mükafatlar təqdim olunub

*Ramazan bayramı münasibətilə iyunun 6-da Silahlı Qüvvələrin Təlim və Tədris Mərkəzində Qarabağ müharibəsi əlilləri, veteranları və şəhid ailələrinin bir qrupu ilə görüş keçirilib.*




Müdafiə Nazirliyi Mətbuat Xidmətinin məlumatına əsasən, tədbirdə iştirak edən Müdafiə nazirinin müavini general-leytenant Kərim Vəliyev nazirliyin rəhbərliyi adından veteranları Ramazan bayramı münasibətilə təbrik edib, onlara möhkəm cansağlığı arzulayıb. Nazir müavini Azərbaycan Ordusunun əldə etdiyi nailiyyətlər, şəxsi heyətin döyüş hazırlığı və mənəvi-psixoloji vəziyyəti, ordu quruculuğu sahəsində həyata keçirilən islahatlar barədə danışıb.

Qeyd olunub ki, ordu və cəmiyyət təmaslarının qurulmasının çoxşaxəli fəaliyyət istiqamətlərindən biri də bu cür görüşlərin təşkilidir. Bu kateqoriyadan olan şəxslərə diqqət və qayğının əsasının ulu öndər Heydər Əliyev tərəfindən qoyulduğunu vurğulayan nazir müavini bu qayğının Azərbaycan Respublikasının müdafiəsinə, işğal edilmiş torpaqlarımızın azad edilməsinə və ölkəmizin ərazi bütövlüyünün təmin edilməsinə yönəldiyini qeyd edib.

General-leytenant K.Vəliyev bildirib: "Azərbaycanın ərazi bütövlüyünün müdafiəsi uğrunda döyüşlərdə fiziki sağlamlığını itirmiş vətəndaşların, hərbi xidmət dövründə vəzifə borclarını yerinə yetirərkən əlil olmuş şəxslərin yaşayış səviyyəsinin yaxşılaşdırılması daim dövlətin diqqət mərkəzindədir. Qarabağ döyüşlərində veteranlarımız rəşadətlə vuruşublar. Sizlər hər zaman hərbi qulluqçularımıza nümunə olub, təcrübənizi cəbhə bölgəsində əsgərlərlə bölüşürsünüz. Odur ki, biz sizləri daim qorumalı, sosial təminat məsələlərinizi isə hər zaman diqqət mərkəzində saxlamalıyıq".

Azərbaycan Qarabağ Müharibəsi Əlilləri, Veteranları və Şəhid Ailələri İctimai Birliyinin sədri Mehdi Mehdiyev isə qeyd edib ki, Azərbaycanda Qarabağ müharibəsi əlillərinə və şəhid ailələrinə yüksək dövlət qayğısı göstərilir. "Ulu Öndərimiz tərəfindən imzalanan "Azərbaycan Respublikasını erməni təcavüzündən müdafiə edərkən əlil olmuş şəxslərin sosial müdafiəsinin yaxşılaşdırılması haqqında" Fərman müharibə əlillərinin sosial ehtiyaclarının ödənməsi istiqamətində atılan ilk addım oldu. Bu istiqamətdə aparılan siyasət bu gün yeni mərhələyə qədəm qoyub. Müharibə veteranlarının və əlillərinin, həmçinin şəhid ailələrinin sosial müdafiəsinin gücləndirilməsi, onların problemlərinin vaxtında həll olunması və hər cür qayğı ilə əhatə olunması Ümummilli Liderimizin layiqli davamçısı, Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi ilə həyata keçirilən sosial siyasətin əsas prioritetlərindəndir".

Digər çıxış edənlər işğal olunmuş torpaqlarımızın Ali Baş Komandanın rəhbərliyi altında azad edilməsi uğrunda döyüşlərə hər zaman hazır olduqlarını qeyd edib, müharibə veteranları, şəhid ailələrinə göstərilən diqqət və qayğıya görə Azərbaycan Prezidentinə və Müdafiə Nazirliyinin rəhbərliyinə minnətdarlıqlarını bildiriblər.

Tədbir iştirakçılarına Ali Baş Komandan adından Ramazan bayramı münasibətilə mükafatlar təqdim edildikdən sonra xatirə şəkli çəkdirilib.

# Əlahiddə Ümumqoşun Ordunun artilleriyaçıları yüksək peşəkarlıq nümayiş etdiriblər

*Azərbaycan Ordusunun "Ən yaxşı reaktiv artilleriya divizionu" adı uğrunda keçirilən yarışda Əlahiddə Ümumqoşun Ordunun artilleriyaçıları yüksək peşəkarlıq nümayiş etdiriblər.*



Müdafiə Nazirliyi Mətbuat Xidmətinin məlumatına əsasən, plana uyğun olaraq keçirilən yarışda Əlahiddə Ümumqoşun Ordunun reaktiv artilleriya divizionunun şəxsi heyəti bütün mərhələlər üzrə tapşırıqları uğurla yerinə yetirərək Azərbaycan Ordusu üzrə birinci yerə layiq görülüb.

*"Vətənə, xalqa və dövlətə xidmət ömrümüzün mənasıdır"*

# "Bu görüşü həmişə xoş hisslərlə xatırlayacam"

Son illər ordu quruculuğu istiqamətində həyata keçirilən islahatlar, maddi-texniki təminatın yüksəldilməsi, şəxsi heyətin sosial-məişət şəraitinin yaxşılaşdırılması ölkə başçısı, Ali Baş Komandan İlham Əliyevin bu sahəni daim diqqət mərkəzində saxladığının və orduya diqqətin dövlət üçün prioritet olduğunun bariz sübutudur.

Müdafiə naziri general-polkovnik Zakir Həsənov və nazirliyin digər rəhbər heyəti Azərbaycan Respublikasının Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı İlham Əliyevin təsdiq etdiyi plana əsasən, keçirilən genişmiqyaslı əməliyyat-taktiki təlimləri çərçivəsində müxtəlif istiqamətlərdə yerləşən ön xətt bölmələrində olublar. Hərbi xidmətin və döyüş növbətçiliyinin təşkilini, bölmələrin döyüşə hazırlıq səviyyəsini yoxlayan Müdafiə naziri hərbi qulluqçular qarşısında çıxış edib, tövsiyələrini çatdırıb və xidmətdə fərqlənən bir qrup hərbçiyə qiymətli hədiyyələr təqdim edib.

Təlim zamanı döyüş tapşırıqlarının yerinə yetirilməsində fərqlənən və təltif olunan hərbi qulluqçulardan biri də müddətdən artıq həqiqi hərbi xidmət hərbi qulluqçusu Cavid İbixanlıdır. Döyüş hazırlığından keçirilən dərsdə iştirak edən, Müdafiə naziri tərəfindən mükafat almağın sevincini yaşayan Cavidin düşüncələrini öyrəndim:



- Bu görüşü həmişə xoş hisslərlə xatırlayacağam. Bu hədiyyənin böyük mənəvi dəyəri var. Həyatımda aldığım ən özəl hədiyyədir. Bu saat təkcə vaxtı göstərmir, ona baxanda həmin an keçirdiyin sevinci, həyəcanı görürsən. Hərbi formanın qürurunu, müqəddəs vəzifəni, ana Vətənini görürsən. Bir də keçən hər saatın səni doğma Qarabağımıza yaxınlaşdırdığını görürsən. Şuşaya, Laçına, Kəlbəcərə... şanlı bayrağımızı sancacağın günü görürsən. Ekranında yazılan Müdafiə Nazirliyi sözlərini gördükcə 100 yaşını adlayan qüdrətli ordunun nümayəndəsi olmaqdan, Vətən müdafiəçisi adını daşımaqdan qürurlanırsan.

Cavidlə kəlmələşmək könül xoşluğu aşılayır. Bax, Azərbaycan Ordusunun əsl gücü seçdiyi peşəyə ürəkdən bağlı olan, Vətənə xidməti mənəvi borc bilib, nümunəvi xidmət edən belə oğulların qətiyyətindədir. Dövlətimizlə, ordumuzla, əsgərimizlə bir daha qürurlanırsan.

**Leytenant
Mahmud MÖHBALIYEV,
"Azərbaycan Ordusu"**

# “Sarsılmaz qardaşlıq-2019” təlimi

*"Sarsılmaz qardaşlıq-2019" təlimində iştirak edən Türkiyə Silahlı Qüvvələrinin nümayəndələri Naxçıvan Muxtar Respublikasının gəzməli-görməli, tarixi-mədəni yerlərində və muzeylərində olublar. Qonaqlar Heydər Əliyev Muzeyini, "Xan Sarayı" Dövlət Tarix-Memarlıq, Möminə Xatın və Açıq Səma Altında Muzey Kompleksini, Naxçıvan Döyüş Şöhrəti Muzeyini, Duzdağ Fizioterapiya Mərkəzini ziyarət edərək zəngin təəssüratlar əldə ediblər.*



Müdafiə Nazirliyi Mətbuat Xidmətinin məlumatına əsasən, türkiyəli hərbçilər gəzinti çərçivəsində Əlahiddə Ümumqoşun Ordunun ön xətdə yerləşən hissə və bölmələrində şəxsi heyətin sosial-məişət şəraiti, mövqelərdə aparılan döyüş növbətçiliyi ilə yaxından tanış olublar.

* * *

Azərbaycan Respublikası və Türkiyə Respublikası arasında imzalanmış hərbi əməkdaşlıq haqqında sazişə əsasən, iyun ayının 7-dən 11-dək Naxçıvanda "Sarsılmaz qardaşlıq-2019" birgə döyüş atışlı taktiki təlimin son mərhələsi keçiriləcək.

Əlahiddə Ümumqoşun Ordunun və Naxçıvan Muxtar Respublikanın güc strukturlarının, eləcə də Türkiyə Respublikası Silahlı Qüvvələrinin bölmələrinin iştirakı ilə keçirilən təlimə 5000-ə qədər şəxsi heyət, 200-dən artıq tank və digər zirehli texnika, 180-ə yaxın müxtəlif çaplı raket və artilleriya qurğusu, yaylım atəşli reaktiv sistemləri və minaatan, 21 ədəd təyyarə, helikopter, pilotsuz uçuş aparatı və silahlanmaya yeni daxil edilmiş müxtəlif növ müasir silah və hərbi texnika nümunələri cəlb olunacaq.

Təlimin məqsədi qərargahların müştərək döyüş əməliyyatları planlarının hazırlanması, şəxsi heyətin peşəkarlıq səviyyəsinin artırılması və onların birgə tapşırıqları icra etmək vərdişlərinin inkişaf etdirilməsi ilə Azərbaycan və Türkiyə hərbi bölmələrinin qarşılıqlı fəaliyyətinin koordinasiyasına nail olmaqdır.



* * *

"Sarsılmaz qardaşlıq-2019" təlimində iştirak edən Türkiyə Silahlı Qüvvələrinin hərbi qulluqçularının asudə vaxtlarının səmərəli təşkili məqsədilə mədəni-kütləvi tədbirlər keçirilib.

Təşkil olunan Ramazan bayramı süfrəsində Türkiyəli hərbçilər Əlahiddə Ümumqoşun Ordunun hərbi hissəsində hərbçilərimizlə birlikdə nahar ediblər. Tədbirdə Türkiyə Respublikasının Naxçıvandakı Baş konsulu Məhmət Emin Kiraz da iştirak edib.

Mədəni tədbirlərin davamı kimi hər iki ölkənin hərbi qulluqçuları arasında "Qardaşlıq qazansın" devizi altında mini futbol yarışı keçirilib. Hər iki komanda yüksək fiziki hazırlıq və futbol ustalığı nümayiş etdirib.

## Nümunəvi xidmət

# “Vətənə xidmətdən qürur duyuram”

*Əsgər Vasif Əliyevin xidmətinin xeyli hissəsi arxada qalıb. Bu müddət ərzində o, üzərinə düşən tapşırıqların öhdəsindən bacarıqla gəlib. Nümunəvi xidməti ilə həm komandirlərinin, həm də əsgər dostlarının rəğbətini qazanıb.*



Əsgər Vasif Əliyev orta məktəbdə təhsilini başa vurduqdan sonra hərbi xidmətə çağırılıb, Vətən qarşısında borcunu yerinə yetirməyə başlayıb. Qısa müddət ərzində özünü bacarıqlı bir əsgər kimi göstərib. Təlimlərdə və məşğələlərdə fəal iştirak edib. Silahların və texnikaların sirlərinə dərindən yiyələnib.

- Əsgər forması geyindiyim günü heç vaxt unutmayacağam, - deyə əsgər Vasif Əliyev söhbətə başladı. - Mən həmişə arzu etmişəm ki, əsgər olum, doğma Vətənimə övladlıq borcumu yerinə yetirim. Bu borc şərəflə yerinə yetirilməlidir. Mənə elə gəlir ki, Vətənə əsgər olmaqdan şərəfli heç nə ola bilməz. Hərbi xidmətə hər zaman böyük marağım olduğu üçün dərs və məşğələlərdə hərbi bilikləri mənimsəmək çətin olmadı. Komandirlərimizin sayəsində qısa vaxt ərzində sıra, döyüş, fiziki, atəş hazırlıqlarını mükəmməl mənimsədik. Xidmətimizi daha həvəslə davam etdiririk. Komandirlərimizin əmr və tapşırıqlarını sözsüz və vaxtında yerinə yetiririk.

Üzərinə düşən vəzifənin müqəddəsliyini və məsuliyyətini yaxşı başa düşdüyünü deyən Vasif söhbətinə davam etdi: "Bu vəzifələri həm də mənəvi borc bilirəm. Mübariz, Çingiz, Raquf ... kimi mərd oğullarımızın keçdiyi yol, qəhrəmanlıq nümunələri Azərbaycan əsgəri üçün örnəkdir. Bizim yalnız bir məqsədimiz var - ermənilərdən qisasımızı alıb, əzəli torpaqlarımıza geri dönmək. Mən də hər bir Azərbaycan əsgəri kimi inanıram ki, Ali Baş Komandanımızın rəhbərliyi altında o günə çox az qalıb".

Müddətdən artıq həqiqi hərbi xidmət hərbi qulluqçusu kiçik çavuş Loğman Ağcayev də söhbətimizə qoşularaq əsgər Vasif Əliyevin nümunəvi xidmət etdiyini dedi: “O, həm fiziki hazırlıq məşğələsində, həm də keçirilən təlimlərdə verilən əmr və tapşırıqları peşəkarlıqla yerinə yetirir. Qazandığı uğurlarla heç vaxt arxayınlaşmır, hər zaman biliklərini daha da təkmilləşdirməyə çalışır. Xidmətə yeni başlayan gənc əsgərlərimizə də köməklik edir. Bu amillər onu şəxsi heyətə sevdirir. Belə mərd, igid və bacarıqlı əsgərlərimizlə öyünürük”.

**Baş leytenant
Orxan HÜSEYNLİ,
"Azərbaycan Ordusu",
foto
çavuş
Namiq PƏNAHOVUNDUR**

# ABŞ Konqresinin üzvü Azərbaycanın milli bayramı ilə bağlı bəyanatla çıxış edib

*ABŞ Konqresinin Nümayəndələr Palatasının demokrat üzvü, Azərbaycan üzrə İşçi Qrupun həmsədri, Tennesi ştatını təmsil edən Stiv Kohen Azərbaycanın milli bayramı - Respublika Gününün 101-ci ildönümü münasibətilə bəyanatla çıxış edib.*

AZƏRTAC xəbər verir ki, Konqres üzvü bəyanatında Azərbaycanın 1918-ci ildə müsəlman aləmində ilk demokratik, dünyəvi parlamentli respublika qurduğunu və onun Prezident Vudro Vilson Administrasiyası tərəfindən tanındığını qeyd edib. Azərbaycan Xalq Cümhuriyyətinin 1920-ci ildə süqut etməsinə rəğmən qadınlara səsvermə hüququ verən ilk müsəlman dövləti olduğunu bildirib.

Sovet İttifaqı dağıldıqdan sonra Azərbaycanın 1991-ci ildə müstəqilliyini bərpa etdiyini bildirən Konqres üzvü bəyanatında Azərbaycanın qlobal enerji təhlükəsizliyinin gücləndirilməsində aparıcı rol oynadığını, İsrailin neft istehlakının 40 faizinin Azərbaycan tərəfindən təmin edildiyini deyib. O, Azərbaycan ilə İsrail arasında sıx dostluq əlaqələrinin mövcud olduğunu diqqətə çatdırıb. Azərbaycanın uzun illərdir yəhudi, xristian icmalarının da məskəni olduğunu bildirən Konqres üzvü ölkədəki dini dözümlülüyün Avropa Parlamenti tərəfindən də təqdir edildiyini vurğulayıb.

Daha sonra bəyanatda Azərbaycanın NATO-nun Sülh naminə Tərəfdaşlıq Proqramının fəal üzvü kimi beynəlxalq təhlükəsizlik, terrorçuluqla mübarizə, nüvə silahlarının yayılmaması kimi sahələrdə ABŞ-ın əsas tərəfdaşı olduğu qeyd olunub. Azərbaycan əsgərlərinin İraq, Kosovo, habelə Əfqanıstanla bağlı əməliyyatlarda ABŞ qoşunları ilə çiyin-çiyinə xidmət etdiyi vurğulanıb. Azərbaycanın Əfqanıstanda Beynəlxalq Təhlükəsizliyə Yardım Qüvvələrinin əməliyyatına verdiyi töhfə xüsusilə qeyd olunub.

Sonda Konqres üzvü Azərbaycan üzrə İşçi qrupun həmsədri olaraq ölkəmizin müstəqillik, təhlükəsizlik, insan hüquqları və demokratik dəyərlərin gücləndirilməsi istiqamətindəki səylərində Azərbaycan xalqı ilə birgə olduğunu vurğulayaraq ABŞ və Azərbaycan arasındakı tərəfdaşlığın davam etməsi və daha da güclənməsi ilə bağlı xoş arzularını ifadə edib.

# Əlahiddə Ümumqoşun Orduda zabit heyətinin təkmilləşdirilməsi kursu başa çatıb

*Əlahiddə Ümumqoşun Orduda zabit heyətinin təkmilləşdirilməsi kursunun başa çatması münasibətilə keçirilən buraxılış mərasimi Azərbaycan Respublikasının Dövlət himninin səsləndirilməsi ilə başlayıb.*

Müdafiə Nazirliyi Mətbuat Xidmətinin məlumatına əsasən, mərasimdə zabit Mehman Gülməmmədov çıxış edərək bildirib ki, kurs zamanı Əlahiddə Ümumqoşun Ordunun Təlim-Tədris Mərkəzində müxtəlif ixtisaslar üzrə dərslər keçirilib. Kursa cəlb edilmiş zabitlərin peşəkarlığı real döyüş şəraitinə yaxın təşkil edilmiş məşğələlərdə daha da artırılıb.




Məzunlar söz veriblər ki, kursda qazandıqları yeni taktiki bilikləri xidmət yerlərində uğurla tətbiq edəcək, ordumuzun peşəkarlığının daha da artırılması üçün əllərindən gələni əsirgəməyəcəklər.

Sonra Əlahiddə Ümumqoşun Ordu Komandanı general-leytenant Kərəm Mustafayev şəxsi heyəti təbrik edərək bildirib ki, peşəkar hərbçilərin yetişdirilməsinə xidmət edən digər kurslar kimi zabit heyətinin təkmilləşdirilməsi kursu da uğurla keçirilir. Kurslar zamanı hərbi qulluqçuların bilik, bacarıq və peşəkarlığı daim artırılır. Təbii ki, bütün bunlar da hərb işinə verilən yüksək qiymətdən xəbər verir.

Sonda kursu uğurla başa vuran məzunlara sertifikat və hədiyyələr təqdim edilib.

Kurs birincisi tərəfindən xatirə lövhəsinə buraxılış emblemi vurulub və məzunların yuxarı vəzifələrə təyin olunmaları ilə bağlı verilən əmr mərasim iştirakçılarına çatdırılıb. Əmr oxunduqdan sonra məzunların tribuna önündən təntənəli keçidi olub, məzunlarla xatirə şəkli çəkdirilib.

# Hərbi hissələrdə bayram tədbiri keçirildi

*İslamda ilin ayları arasında Ramazan ayı ən müqəddəs ay hesab edilir. Onu məcazi mənada "on bir ayın sultanı" da adlandırırlar. Ramazan bayramının məqsədlərindən biri müsəlmanların birliyini təmin etməkdir. Bu bayram ölkəmizdə böyük coşqu ilə qarşılanır. Ramazan bayramı ölkəmizin hər bir bölgəsində olduğu kimi, Azərbaycan Ordusunda da təntənə ilə qeyd edilir. Keçirilən tədbirlərdə xalqımızın ümummilli lideri Heydər Əliyevin və torpaqlarımızın suverenliyi, ərazi bütövlüyü uğrunda şəhid olanların xatirəsi bir dəqiqəlik sükutla yad edildi. Azərbaycan Respublikasının Dövlət himni səsləndirildi.*



Növbəti bayram tədbiri "N" hərbi hissəsində Həzi Aslanov adına Ordu-İdeoloji və Mədəniyyət Mərkəzinin təşkilatçılığı ilə baş tutdu. Tədbirdə hərbi hissənin şəxsi heyəti iştirak edirdi.

Əvvəlcə hərbi hissə komandirinin ideoloji iş və mənəvi-psixoloji təminat üzrə müavini kapitan Vüsal Kərimov əsgərləri müqəddəs bayram münasibətilə təbrik edərək onlara bu günün əhəmiyyətindən danışdı. "Ramazan bayramı İslam aləminin ən möhtəşəm və müqəddəs bayramlarından biridir. Qədim tarixə malik olan bu bayram hər il dünya müsəlmanları tərəfindən qeyd edilir. Xeyirxahlığın, insanpərvərliyin, bərabərliyin rəmzi olan bu bayram insanları həmrəyliyə, qardaşlığa dəvət edir. Həmçinin bu müqəddəs günlərdə torpaqlarımızın azadlığı uğrunda şəhid olmuş soydaşlarımızın da xatirələri yad edilir. Ali Baş Komandan cənab İlham Əliyevin diqqət və qayğısının nəticəsidir ki, hər il Ramazan bayramında şəhid ailələrinə, qazilərə müxtəlif yardımlar göstərilir. Mən bir daha sizləri müqəddəs Ramazan bayramı münasibətilə təbrik edirəm. Bu mənəvi yenilənmə və təmizlənmə bayramında sizə xoşbəxtlik, saf niyyətlər, xidmətinizdə uğurlar və qələbə müjdəli xəbərlər arzulayıram. "

Həzi Aslanov adına Ordu-İdeoloji və Mədəniyyət Mərkəzinin əməkdaşları leytenant Günel Dadaşova və Gülxar Məmmədova da əsgərlərimizi bayram münasibətilə təbrik etdilər. "Bu gün insanların səmimiyyəti tamam fərqlidir. Hər kəs bir-birini daxildən gələn sevgi ilə təbrik edir. Bu bir islami kamillikdir. Qoy Uca Yaradan Azərbaycan əsgərini qorusun, xalqımıza və Vətənimizə sülh və əmin-amanlıq, xoş günlər bəxş etsin. Tezliklə bütün bayramları işğaldan azad edəcəyimiz gözəl Qarabağımızda qeyd edək."

Sonda Həzi Aslanov adına Ordu-İdeoloji və Mədəniyyət Mərkəzinin yaradıcı kollektivi hərbi hissənin şəxsi heyətini öz gözəl nəğmələri və rəqsləri ilə təbrik etdilər. Tədbir xatirə şəklinin çəkilməsi ilə başa çatdı.

* * *

Həzi Aslanov adına Ordu-İdeoloji və Mədəniyyət Mərkəzinin təşəbbüsü ilə Hərbi Dəniz Qüvvələrinin "N" hərbi hissəsində Ramazan bayramı münasibətilə tədbir keçirildi.

Hərbi Dəniz Qüvvələrinin zabiti mayor Cabir Bəxtiyarov çıxış edərək tədbir iştirakçılarını müqəddəs Ramazan bayramı münasibətilə ürəkdən təbrik etdi, hər birinə ən səmimi arzu və diləklərini çatdırdı. “Mübarək Ramazan ayı insanları gözəl niyyətlər və xeyirxah əməllər naminə birliyə çağırır, onları əmin-amanlıq, qardaşlıq və bərabərlik yoluna dəvət edir. Müsəlmanlar bu ayda Allah və din qarşısında vicdani borc və vəzifələrini ləyaqətlə yerinə yetirmək fürsəti qazanır, mənəvi-ruhi kamilliyin nəfs üzərində qələbə sevincini yaşayırlar. Ölkəmizin hər bir bölgəsində olduğu kimi, hərbi hissəmizdə də mübarək Ramazan ayını böyük fərəh hissi və könül xoşluğu ilə qeyd edirik. Orucluğun sınaqlarından alnıaçıq çıxan vətəndaşlarımız məmnuniyyətlə bayram sevincini bölüşür, dövlətimizin rifahı və tərəqqisi üçün diləklər edirlər, şəhidlərimizin ölməz ruhuna dualar oxuyurlar. İnanıram ki, bu müqəddəs bayram günlərində etdiyiniz dua və diləklər tanrı dərgahında qəbul olunacaq və işğal altında olan torpaqlarımız tezliklə Ali Baş Komandanımızın rəhbərliyi altında azad ediləcəkdir”.



Həzi Aslanov adına Ordu-İdeoloji və Mədəniyyət Mərkəzinin zabiti leytenant Günel Dadaşova da tədbir iştirakçılarını müqəddəs Ramazan bayramı münasibətilə təbrik etdi. Müqəddəs Ramazan bayramının mahiyyəti haqqında ətraflı danışan zabit milli və dini tolerantlığın hökm sürdüyü Vətənimizdə bütün dini bayramların, o cümlədən də Ramazan bayramının hər il təntənə ilə qeyd edildiyini bildirdi. O, Ramazan ayının həmrəylik, dostluq, qardaşlıq, sevgi, mərhəmət və ruzi-bərəkət ayı olduğunu xüsusi vurğuladı. Natiq ulu öndər Heydər Əliyevin hər zaman dini dəyərlərə önəm verdiyini tədbir iştirakçılarının diqqətinə çatdırdı. Müqəddəs bayramların dövlət tərəfindən yüksək səviyyədə qeyd olunduğunu bildirərək, bu ənənənin bu gün də Ali Baş Komandan İlham Əliyev tərəfindən davam etdirildiyini qeyd etdi.

Həzi Aslanov adına Ordu-İdeoloji və Mədəniyyət Mərkəzinin nümayəndəsi Gülxar Məmmədova Ramazan bayramı münasibəti ilə tədbir iştirakçılarını, eləcə də bütün xalqımızı təbrik edərək, əminliklə qeyd etdi ki, növbəti Ramazan bayramımızı Ali Baş Komandanımızın rəhbərliyi altında işğaldan azad edəcəyimiz torpaqlarımızda keçirəcəyik.

Tədbir Həzi Aslanov adına Ordu-İdeoloji və Mədəniyyət Mərkəzinin yaradıcı kollektivinin konsert proqramı ilə başa çatdı.

**Baş leytenantlar**
**Məhəmməd NƏSİRLİ,**
**Orxan HÜSEYNLİ,**
**"Azərbaycan Ordusu"**

# “Səninlə fəxr edirik, Azərbaycan əsgəri!” aksiyası iştirakçılarından bir qrupu “İsgəndər qalası”nda olub

*Azərbaycan Dövlət İqtisad Universitetinin (UNEC) təşəbbüsü ilə "Səninlə fəxr edirik, Azərbaycan əsgəri!" devizi altında keçirilən Azərbaycan Ordusuna mənəvi dəstək aksiyasına qoşulan UNEC-in Qadınlar Şurasının fəalları cəbhəboyu zonada yerləşən hərbi hissələrdə olublar.*



Yurdumuzun gözəllikləri, ucqar dağ rayonunda quruculuq-abadlıq işlərinin geniş vüsət alması, insanların firavan yaşayışı aksiya iştirakçılarını nə qədər fərəhləndiribsə, ön xətt mövqelərində, düşmənlə qarşı-qarşıya mərdliklə dayanan mübariz əsgərlərimizin şux görkəmi, qələbə əzmi, gələcəyə nikbin baxışı və hər an torpaqlarımızı azad etməyə hazır və qadir olduqları bir o qədər də qonaqları sevindirib.

Müdafiə Nazirliyi Mətbuat Xidmətinin məlumatına əsasən, hərbi qulluqçular tərəfindən qarşılanan aksiya iştirakçıları əvvəlcə Gədəbəy şəhərinə gələrək xalqımızın ümummilli lideri Heydər Əliyevin abidəsini ziyarət edib Ulu Öndərə ehtiramlarını bildiriblər.

Gədəbəy uğrunda döyüşlərdə əsl qəhrəmanlıq nümunələri göstərərək şəhidlik zirvəsinə ucalan Milli Qəhrəman Məzahir Rüstəmovun abidəsi qarşısında qrupun bələdçisi, Əməkdar incəsənət xadimi, Prezidentin fərdi təqaüdçüsü, polkovnik Abdulla Qurbani əfsanəvi döyüşçünün hər bir gənc üçün örnək ola biləcək igidliklərindən söhbət açıb.

Nəzərə çatdırılıb ki, Bakıda çalışdığı yüksək vəzifə postunu tərk edərək könüllü döyüşlərə atılan baş leytenant Məzahir İzzət oğlu Rüstəmov 1992-ci il avqustun 6-da olduqca mühüm strateji yer olan Mutudərə uğrunda döyüşlərdə son nəfəsinə qədər vuruşub. Qorxmaz zabit düşmənin əlinə diri keçməsin deyə, onları yaxınına buraxaraq sonuncu qumbarası ilə həm özünü, həm də xeyli qulduru məhv edib.

Bu gün gədəbəylilər, eləcə də bölgənin müdafiəsində dayanan hərbçilər Milli Qəhrəmanın xatirəsini əziz tutur və onu həmişə nümunə göstərirlər. Keçən il hərbi hissənin təşəbbüsü ilə Məzahir Rüstəmovun Mutudərə zirvəsində xatirə abidəsi ucaldılmışdır. Döyüş növbəsinə yollanan hər bir əsgər burada ayaq saxlayır və qəhrəmanın xatirəsini sükutla yad edir.

Aksiya iştirakçıları Məzahir Rüstəmovun da vaxtilə xidmət etdiyi hərbi hissənin qərargahı qarşısına toplaşan şəxsi heyəti Ramazan bayramı münasibətilə təbrik edib, onlara çətin və şərəfli xidmətlərində uğurlar arzulayıb, Azərbaycanın Milli Qəhrəmanı İsgəndər Aznaurovun büstü qarşısında xatirə şəkli çəkdiriblər.

UNEC Qadınlar Şurasının sədri, Distant, Qiyabi və Əlavə Təhsil Mərkəzinin direktor müavini, dosent Təranə Kərimovanın rəhbərlik etdiyi qrup səfərləri zirvələrə doğru davam etdiriblər.

Çaysahili sıldırım qayalıqlarda kəşfiyyatçıların öz məharətlərini, peşəkarlıqlarını, fiziki, mənəvi, iradi keyfiyyətlərini əyani şəkildə nümayiş etdirən nümunəvi göstəriləri, düşdükləri ekstremal vəziyyətlərdən çıxmaq üçün əl atdıqları ən çətin çevik fəndlər qonaqları heyrətləndirib. "Əgər Azərbaycan Ordusunda bu cür qorxmaz, igid oğullar varsa, deməli, torpaqlarımız tezliklə işğaldan azad ediləcək, respublikamızın ərazi bütövlüyü təmin olunacaqdır", - deyə ziyalı qadınlar kəşfiyyatçıları alqışlayıblar.

Hər bir döyüşçüyə UNEC-in professor-müəllim və tələbə heyətinin Azərbaycan əsgərinə müraciəti dərc edilmiş kitabçalar təqdim olunub.

Artilleriyaçılar düşmənin bütün hərbi obyektlərini bir anda darmadağın etməyə, silahlarını susdurmağa qadir olduqlarını nəzəri və təcrübi biliklərini əyani şəkildə göstərməklə təsdiq ediblər.

Xarici Dillər kafedrasının müdiri, filologiya elmləri doktoru, professor Afət Abbasova ulu öndər Heydər Əliyevin "Milli Ordu bütün xalqın övladıdır və onun formalaşmasına, inkişafına müntəzəm qayğı və diqqət göstərmək hər bir dövlət təşkilatının, yerli orqanların, özəl qurumların, hər bir Azərbaycan vətəndaşının borcudur" fikrini xatırlatmaqla, bu gün öz vətəndaşlıq borclarını yerinə yetirərək uzaq bir məsafəni qət edib, müqəddəs Ramazanda əsgərlərimizlə görüşə gəldiklərini və burada gördüklərindən qürur duyduqlarını diqqətə çatdırıb. Professor A.Abbasova Azərbaycan əsgərinin məğrurluğunu hərbi paradlardan, genişmiqyaslı təlimlərdən hazırlanmış videoreportajlardan dəfələrlə izlədiyini vurğulayıb. Bu gün onların xidmət şəraiti, onlara etibar edilmiş texnika, silah-sursatla yaxından tanışlıqdan, şəxsi heyətin döyüş ruhunun, mənəvi-psixoloji hazırlığının, vətənpərvərlik hissinin yüksək səviyyədə olduğunu bir daha gördükdən sonra deyib: "Möhtərəm Prezidentimiz, Ali Baş Komandan cənab İlham Əliyev heç də hədər yerə deməyib ki, Azərbaycan Ordusu dünya miqyasında güclü ordular sırasındadır. Biz ən ucqar zirvələrdə gördük ki, həqiqətən bizim güclü ordumuz, döyüşkən oğullarımız var və hər bir əmrə hazırdırlar".



Respublikamızın ayrı-ayrı bölgələrindən olan əsgər və zabitlərlə "Ordumuz qürurumuz, Xalqımız dayağımız" mövzusunda keçirilən söhbət zamanı "Türk dünyası" İqtisad fakültəsinin dekan müavini Cəvahir Məmmədova, "SABAH" Mərkəzinin dekanı, dosent Aida Quliyeva, Dizayn kafedrasının müdiri, dosent Lalə Məmmədova, Tələbə şöbəsinin müdiri, dosent Xalidə Yusifova ordumuzla fəxr etdiklərini, onun uğur və nailiyyətlərindən qürur duyduqlarını, döyüşçülərdən isə Vüqar Feyziyev, Eldəniz Hüseynov, Ruslan Əsədov, Hikmət Əlizadə, Vüqar Həmidov və başqaları arxalarında möhtəşəm bir xalqın dayandığından, orduya inamın, bütün cəmiyyətdə vətənpərvərlik hissinin daha da yüksəlməsindən, cəmiyyətin Ali Baş Komandanımızın ətrafında vahid amal uğrunda birləşməsindən böyük güc aldıqlarını qeyd ediblər.

Düşmənlə təmas xəttində, "İsgəndər qalası"nda keçirilən görüş isə həm aksiya iştirakçılarının, həm də qalanın qəhrəman müdafiəçilərinin xatirəsindən uzun müddət silinməyəcək.



Polkovnik-leytenant Eldəniz Nəsirov bu qalanın tarixi barədə ətraflı məlumat verərək deyib: "İsgəndər Söhrab oğlu Aznaurov 1956-cı ildə Özbəkistanın Buxara vilayətində anadan olub, axısqa türküdür. Ukraynada hərbi xidmət keçib, Daşkənd İrriqasiya İnstitutunu fərqlənmə diplomu ilə bitirib. 1989-cu ildə Özbəkistanın Fərqanə vadisindəki qanlı olaylardan sonra yüz minlərlə axısqa türkü kimi o da oranı tərk etməyə məcbur olub və 1990-cı ildə Azərbaycana, Şəmkir rayonunun Kür qəsəbəsinə gələrək burada çalışıb. Erməni işğalçıları torpaq iddiaları ilə ölkəmizə basqın edəndə İsgəndər də könüllü olaraq döyüşlərə yollanıb və yeni yaranmaqda olan ordumuzun ilk peşəkar döyüşçülərindən olub. Topçu İsgəndər bu qalada döyüş mövqeyi seçərək düşmənlərin üzərinə od ələyib, bir gündə rəqibin dörd topunu sıradan çıxarıb, onlarla düşməni məhv edib. Hətta o vaxtlar ermənilər Topçu İsgəndərin başı üçün külli miqdarda mükafat da ayırmışdılar. Hərbi hissənin artilleriya rəisinin müavini vəzifəsinədək yüksələn türk qardaşımız Başkəndin quldurlardan təmizlənməsində, "Mutudərə", "Ərdağı", "Kaftar qalası", əməliyyatlarında da xüsusilə fərqlənib.

"Örükdaş"da düşmənin 13 texnikasına qarşı 3 növ texnika ilə təkbaşına vuruşub. Səhhətində problemlər yaranmasına baxmayaraq, müalicə olunmaqdan imtina edib. Ağır döyüşlərin birində şəhid olan Topçu İsgəndərin Azərbaycan Bayrağına bükülmüş cənazəsi Bakıya aparılaraq böyük izdihamın iştirakı ilə Şəhidlər xiyabanında son mənzilə uğurlanıb. O vaxtdan alınmaz istehkama çevrilən bu mövqe "İsgəndər qalası" adlanır və burada xidmət edən hər bir döyüşçü Topçu İsgəndərə oxşamağa, onun qəhrəmanlıqlarını təkrarlamağa çalışır.

İsgəndərin xatirə lövhəsinin qarşısında çıxış edən UNEC-in qadın fəalları, professor və müəllimlər şəxsi heyətə bundan sonra da şərəfli xidmətlərində uğurlar arzulayıb, Aprel və Günnüt əməliyyatlarında qazanılan qələbənin böyük qələbə ilə nəticələnəcəyinə əminliklərini bildirib, ön səngərdən düşmən mövqelərini müşahidə edib, əsgərlərin sosial-məişət şəraiti ilə tanış olub, xidmətdə fərqlənən hərbçilərə hədiyyələr təqdim ediblər.

Əsgərlər eşidəndə ki, qrupun rəhbəri, dosent Təranə Kərimova ad günü olmasına baxmayaraq bu gün "İsgəndər qalası"nda, döyüşçülərin arasındadır, dərhal səngər çiçəklərindən çələng hörərək onu da təbrik ediblər.

Polkovnik-leytenant Rasim Manafov komandanlıq adından belə bir xeyirxah vətənpərvərlik təşəbbüsünə görə Azərbaycan Dövlət İqtisad Universitetinin rəhbərliyinə və bu gün ön səngərə gələn UNEC-in fəal qadınlarına minnətdarlığını bildirib.

UNEC-in Qadınlar Şurasının fəalları "İsgəndər qalası"ndan unudulmayacaq xatirələrlə, xoş təəssüratlarla paytaxt Bakıya qayıdıblar.

# Hərbi Dəniz Qüvvələrində intellektual bilik yarışı keçirilib



2019-cu ilin fəaliyyət planına uyğun olaraq Hərbi Dəniz Qüvvələrinin "N" hərbi hissəsində şəxsi heyətin intellektual bacarıqlarının artırılması məqsədilə "Müasir Azərbaycan cəmiyyətində din və elmin vəhdəti" mövzusunda bilik yarışı keçirilib.

Müdafiə Nazirliyi Mətbuat Xidmətinin məlumatına əsasən, əvvəlcə münsiflər heyəti tərəfindən komandalara yarışın əsas şərtləri barədə ətraflı məlumat verilib. Səkkiz komandanın iştirak etdiyi yarışda mövzunu tam əhatə edən sualların zənginliyi birinci yer uğrunda mübarizəni daha da maraqlı edib.

Yarışın aparıcısı finalda on sual səsləndirib və bu sualları daha dəqiq cavablandıran komandanın qalib elan olunacağını diqqətə çatdırıb. Gərginliklə müşayiət olunan yarışda komanda üzvləri yüksək intellektual bilik nümayiş etdiriblər.



Yekunda münsiflər heyətinin qərarına əsasən, "Flaqman" birinci, "Dalğa" ikinci, "Dəniz" komandası isə üçüncü yerə layiq görülüb.

Sonda qaliblərə mükafatlar təqdim olunub.

# Dini Qurumlarla İş üzrə Dövlət Komitəsinin nümayəndələri hərbi dənizçilərlə görüş keçirib

Müdafiə Nazirliyi və Dini Qurumlarla İş üzrə Dövlət Komitəsinin birgə təşkilatçılığı ilə Hərbi Dəniz Qüvvələrində (HDQ) Ramazan bayramı münasibətilə tədbir keçirilib.

Müdafiə Nazirliyi Mətbuat Xidmətinin məlumatına əsasən, tədbir çərçivəsində Dini Qurumlarla İş üzrə Dövlət Komitəsinin nümayəndələri HDQ-nin şəxsi heyəti ilə görüşərək "Azərbaycanda İslam dininin dəyərlərinə sadiqlik ənənələri" mövzusunda geniş söhbətlər aparıb və hərbi qulluqçuları maraqlandıran sualları cavablandırıblar.



# Ermənistan ordusunda kriminal hadisələr

İşğal edilmiş yaşayış məntəqələrimizdə yerləşdirilən Ermənistan silahlı qüvvələrinin bölmələrində tibbi təminatın zəif olması səbəbindən burada xidmət edən hərbi qulluqçular arasında müxtəlif xəstəliklərə yoluxma hallarının sayı kəskin surətdə artıb.

Bu günlərdə "suçiçəyi" xəstəliyinə yoluxmuş 12 hərbi qulluqçu Mikael Vahanyan, Vladimir Martirosyan, Erik Şaburyan, Robert Aroyan, Vartan Azaryan, Vahe Comyan, Tiqran Martirosyan, Spartak Tağmasyan, Ardaki Hovhanesyan, Hakopi Şahbudağyan, Manveli Qabrielyan və Karen Virabyanın valideynləri övladlarının xəstələnməsindən xəbər tutaraq təcili hərbi hissəyə gəliblər.

Bundan sonra valideynlərin narazılığı daha da böyüməsin deyə hərbi hissə komandanlığı tələm-tələsik faktı sənədləşdirərək əsgərləri hospitala yerləşdirib. Əsgər ailələrinin narazılığına əsas səbəb isə müalicə üçün dərmanları öz hesablarına almaları və rüşvət verməyincə həkimlərin xəstələrə göstərdikləri biganəlikdir. Bütün bunları hərbi qulluqçulardan birinin atası qohumları ilə söhbətdə və sosial şəbəkədə paylaşıb.

Faktla əlaqədar Ermənistan müdafiə nazirliyinin tibb idarəsindən hərbi hissəyə həkim-mütəxəssis ezam olunub.

* * *

İşğal edilmiş yaşayış məntəqələrimizdə yerləşdirilən Ermənistan silahlı qüvvələrinin bölmələrindən birində xidmət edən əsgər Armen Sadoyan komandiri tərəfindən təzyiqlərə məruz qalıb. O, müxtəlif bədən xəsarətləri ilə hərbi hospitala yerləşdirilib. Hərbi qulluqçu izahatında bölüyün starşinası baş praporşik Artur Arşakyan tərəfindən tez-tez təhqir edildiyini və döyülərək bu vəziyyətə salındığını yazıb.

Faktla bağlı Hadrut prokurorluğunda araşdırma aparılır və A.Arşakyan tabeliyində olan əsgəri döydüyünə görə istintaqa cəlb edilib.

* * *

İşğal edilmiş ərazilərimizdəki Ermənistan silahlı qüvvələrinin bölmələrində daha bir əsgər nizamnamədənkənar münasibətlər zəminində baş verən dava nəticəsində xəsarət alıb.

Əsgər Davit Mirakyan xidmət yoldaşları tərəfindən döyülüb. Hərbi hissədə faktı gizlətməyə çalışıblar. Yalnız D.Mirakyanın valideynlərinin şikayətindən sonra hərbi hissənin həkimi Vartkez Arzumanyan əsgərin hospitala göndərilməsinə razılıq verib.

Hərbi qulluqçu izahatında axşam vaxtı, arxadan başına gözlənilmədən keçirilərək bir neçə nəfər tərəfindən döyüldüyünü yazıb.

Faktla bağlı araşdırma aparan hərbi polisin müstəntiqi komandanlıqla razılaşaraq hadisəni kiminsə üzərinə atmaqla cinayət işini bağlamağa çalışıb.

* * *

İşğal edilmiş yaşayış məntəqələrimizdə yerləşdirilən Ermənistan silahlı qüvvələrinin bölmələrindən birində baş verən hadisə nəticəsində daha bir əsgər yaralanıb.

Mühəndis-istehkam bölüyünün çöl məşğələsi zamanı bölüyün əsgəri Q.Sağomonyan xəsarət alıb. İlk olaraq yüngül xəsarət aldığı kimi sənədləşdirilən əsgər taborun tibb məntəqəsinə göndərilib. Sonradan Q.Sağomonyanın vəziyyəti ağırlaşdığı üçün komandanlıq onu hərbi hospitala təxliyə etməyə məcbur olub.

Hərbi qulluqçunun valideynlərinin şikayətindən sonra fakt qarnizon prokurorluğu tərəfindən araşdırılır. Təhlükəsizlik qaydalarının kobud şəkildə pozulmasına yol verdiyinə görə taqım komandiri məsuliyyətə cəlb edilib.

* * *

İşğal edilmiş yaşayış məntəqələrimizdə yerləşdirilən Ermənistan silahlı qüvvələrinin bölmələrində hərbi əmlakın oğurlanaraq satılması ilə bağlı daha bir cinayət işi açılıb.

Zabit D.Avenasyanın təqdimatına əsasən, hərbi hissədən benzin oğurlayaraq satan hərbi qulluqçu Yura Qasparyan barəsində cinayət işi başlanılıb.

İstintaqı aparan hərbi prokurorluğun müstəntiqi müəyyən məbləğ pulun müqabilində Y.Qasparyanla razılaşaraq cəzanı yüngülləşdirmək məqsədilə cəmi 40 litr benzin oğurlandığını sənədləşdirib. Araşdırma davam edir.

**Hazırladı:**
**İsa ELDAROĞLU**

# Xəbərlər: hadisələr, faktlar

## Sinay yarımadasında 14 terrorçu məhv edilib



Misirin Daxili İşlər Nazirliyinin (DİN) qüvvələri Sinay yarımadasında Əl-Ariş şəhərindəki nəzarət-buraxılış məntəqəsinə hücumda iştirak edən 14 terrorçunu məhv edib.

Bu barədə DİN-in məlumatında deyilir.

Qeyd olunur ki, polis nəzarət-buraxılış məntəqəsinə hücum edən terrorçuları təqib edib. Bu zaman Əl-Msaid rayonundakı yaşayış olmayan evlərin birində bir qrup yaraqlı aşkarlanıb. Terrorçular polis qüvvələrinə atəş açıblar. Polisin cavab atəşi ilə onlar zərərsizləşdiriliblər. Əməliyyat nəticəsində hadisə yerində silah-sursat aşkar edilib.

## İkinci Dünya müharibəsi zamanı müttəfiqlərin Avropaya hücumunun 75 illiyi qeyd olunub



İyunun 5-də İngiltərənin Portsmut liman şəhərində İkinci Dünya müharibəsi zamanı müttəfiq qüvvələrin Avropaya hücumunun (Normandiya əməliyyatı) 75 illiyi ilə əlaqədar tədbir keçirilib.

Tədbirdə İngiltərə Kraliçası II Elizabet, Baş nazir Tereza Mey, ABŞ Prezidenti Donald Tramp, Kanadanın Baş naziri Castin Trüdo, Fransa Prezidenti Emanuel Makron, Almaniya Respublikasının Federal Kansleri Angela Merkel və İkinci Dünya müharibəsi veteranları iştirak ediblər.

Mərasimdə çıxış edən Kraliça II Elizabet 75 il öncə yüzminlərlə insanın müstəqilliklərini qorumaq üçün Portsmut limanını tərk etdiklərini bildirib. Daha sonra Böyük Britaniyanın Baş naziri Tereza Mey, ABŞ Prezidenti Donald Tramp, Fransa Prezidenti Emanuel Makron və Kanadanın Baş naziri Castin Trüdo çıxış ediblər.

## Yeni Zelandiyada hərbi hava qüvvələrinin bazasını partlatmaqla hədələyən şəxs saxlanılıb



Yeni Zelandiya polisi Oklenddəki hərbi hava qüvvələrinin bazasını partlatmaqla hədələyən şəxsi saxlayıb.

Bu barədə TVNZ telekanalı yerli polisə istinadla məlumat yayıb.

Bu ərəfədə "New Zealand Herald" qəzeti naməlum şəxsdən daxil olmuş hədə ilə əlaqədar Yeni Zelandiyanın qərbində Oklenddə yerləşən hərbi hava qüvvələrinin bazası istiqamətində silahlı polisin və fövqəladə xidmət orqanları əməkdaşlarının hərəkəti barədə xəbər verib. Bildirilir ki, körpüyə aparan yollar əhatəyə alınıb. "Həmin kişi hərbi hava qüvvələrinin "Whenuapai" bazasındakı hadisə ilə əlaqədar saxlanılıb, hazırda o, polisə ifadə verir", - deyə telekanal hüquq-mühafizə orqanlarının bəyanatını yayıb.

## Ukrayna əhalisinin əksəriyyəti Avropa İttifaqı və NATO-ya üzvlüyün tərəfdarıdır



Ukrayna vətəndaşlarının 62 faizi ölkənin Avropa İttifaqına (Aİ), 53 faizi isə NATO-ya üzv olmağın tərəfdarıdır.

Bu barədə "Reytinq" qrupunun apardığı sorğunun nəticəsində qeyd edilib. Sorğuda iştirak edənlərin cəmi 22 faizi Aİ-yə, 31 faizi isə NATO-ya üzvlüyün əleyhinə səs verib. Ukraynanın qərb zonası daha çox beynəlxalq təşkilatlara üzv olmağa tərəfdar çıxıblar. Respondentlərin 82 faizi Aİ-yə, 76 faizi isə NATO-ya üzv olmağa səs verib.

**AZƏRTAC-ın materialları əsasında**

## Bilirəm - tək yanan mən olacağam

Bu da son ayrılıq son dayanacaq
Qismətin əlindən biz hara qaçaq.
Günah kimdə oldu - bilmirəm ancaq
Bilirəm - tək yanan mən olacağam

Bilmirəm sevincdən, ya qəmdən oldu,
Bilmirəm dumandan, ya çəndən oldu.
Bəlkə də ayrılıq tək səndən oldu,
Bilirəm - tək yanan mən olacağam.

Niyə ayrılırıq, hara gedirik,
Vurub qəlbimizə yara, gedirik.
Bəlkə ikimiz də günah edirik,
Bilirəm - tək yanan mən olacağam.

Bəlkə bir yuxuydu - oyanmalısan,
Bəlkə, geri dönüb dayanmalısan,
Cəhənnəm oduna sən yanmalısan
Bilirəm - tək yanan mən olacağam.

Min günah elədin sən dönə-dönə,
Bağışladım səni, sınadım yenə.
Yenə də, yenə də sənin xətrinə.
Bilirəm - tək yanan mən olacağam.

## Çıx qatar yoluna

Çıx qatar yoluna bahar gələndə,
Mən sənə çiçəkli bahar göndərim.
Vüsal meyvəsindən dada bilmədik,
Sənə hər meyvədən nübar göndərim...

Çıx qatar yoluna payız olanda,
Uçan durnalarla salam yetirim.
Çıx qatar yoluna qaş qaralanda,
O qərib axşamı, qəmi itirim...

Çıx qatar yoluna külək əsəndə,
Dağılan saçını darayım sənin.
Çıx qatar yoluna, səni itirsəm,
Bilim ki, mən harda arayım səni...

Çıx qatar yoluna yağış yağanda
Başının üstündə çətir tutaram.
Çıx qatar yoluna, elə özüm də
Mənzilə yetməyən qərib qataram...

Çıx qatar yoluna hər axşam, səhər,
Çıx qatar yoluna, məni qarşıla.
Bəlkə bir ömürlük çəkdi bu səfər,
Mən gələ bilmədim, məni bağışla...

## Unut görüm

Sən məni, əzizim, unuda bilsən,
Gərək çıxmayasan yaşıl çəmənə.
Mən o çəmənlərdən bir bahar çağı
Bir dəstə gül dərib vermişəm sənə…

Sən məni, əzizim, unuda bilsən,
Gərək baxmayasan yağan yağışa.
Açıb könlümüzü bir çətir kimi
O yağış altında gəzmişik qoşa.

Əzizim, sən məni unuda bilsən,
Gərək keçməyəsən o küçələrdən.
Vüsal çəkiləcək son bahar kimi,
İntizar dinəcək lal gecələrdə…

Əzizim, sən məni unuda bilsən,
Ulduzlu göylərdən gözünü çək sən.
Yalqız gecələrdə pıçıldaşanda,
Sən mənim səsimi eşidəcəksən…

Əzizim, sən məni unuda bilsən,
Bir də o gözlərə kim baxacaqdır?!
Saçına əl vurma, aman günüdü,
Mənim əllərimçün darıxacaqdır…

Əzizim, sən məni unuda bilsən,
Şirin xatirələr gen düşəcəkmi?!
Son payız çağında dağlara ilk qar,
Sənin saçlarına dən düşəcəkmi?!

Əzizim, sən məni unuda bilsən,
Yaralı könlünü bir ovut görüm.
Məni unutmağı asan bilmisən?!
Unuda bilirsən, gəl, unut görüm…

*Könlüm şeir istəyir*

# Məhəbbət dünyanı gözəlləşdirir

*Sevgi şeirləri sevgi haqqında söhbətləşmə vasitəsidi və bu baxımdan səmimiyyətlə oxunur. Lirik şair Baba Vəziroğlunun yaradıcılığında "mehrabı uca göylər olan eşq" (N.Gəncəvi) şeirləri ürəyəyatımlıdır, düşündürücüdür, oxunaqlıdır. Hər şeirin mahiyyəti sədaqətə çağırışdı. "Həsrəti də vüsalı qədər şirin sevgi" haqqında yazılan hər şeir duyğular üçündü - məhəbbət dünyanı gözəlləşdirir.*

**"Azərbaycan Ordusu"**

## Hava haqqında

Havadan danışır bir gözəl xanım.
"Yağış yağacaqdır, qar yağacaqdır.
Gah günəş çıxacaq, gah ay doğacaq,
Havalar tutulub-açılacaqdır".

Mənim günəşim də, ayım da sənsən,
Onu sinoptiklər nə bilir axı?.
Sən bir az qıyqacı baxanda mənə,
Mənim gözlərimdə ildırım çaxır.

Bir güllü-çiçəkli bahar günündə,
Soyuq baxışınla qış gəlir sənin.
Mənim taleyimə yağışlar yağır
Elə ki, gözünə yaş gəlir sənin.

Söz var dolu kimi yağır başıma,
Söz var duman olub yolumu kəsir.
Məndən inciyəndə, məndən küsəndə,
Qəlbimə sopsoyuq küləklər əsir.

Səni gözləyirəm, hələ bilmirəm
Yağış yağacaqmı, qar yağacaqmı,
Mənim bu eşqimin səmalarında,
Havalar tutulub-açılacaqmı?

Havadan danışır bir gözəl xanım.
Hardasa qar tökür, ya yağış yağır,
Hardasa ay batır, ya günəş çıxır,
Mənim günəşim də, ayım da sənsən,
Onu sinoptiklər nə bilir axı?!

## Sevgi ayrılıqdan güclüdü, vallah

Mən uzaq səfərə yol alan gəmi,
Səni tərk edirəm bir liman kimi.
Qorxma ayrılıqdan, burax əlimi,
Sevgi ayrılıqdan güclüdü, vallah.

Dünyada nə qədər sevgi var bil ki,
Sən mənim dilimin əzəli, ilki.
Qorxma ayrılıqdan ölüm deyilki
Sevgi ayrılıqdan güclüdü, vallah.

Sən hələ bilmirsən ayrılıq nədir
Hər səfər könlünü sıxır inlədir.
Ayrılan cisimdir, ruh səninlədir
Sevgi ayrılıqdan güclüdü, vallah.

Sənsiz həyat deyil ömür gün mənə,
Tək sənsən ürəkdən yanan sən mənə.
Qorxma ayrılıqdan, inan sən mənə,
Sevgi ayrılıqdan güclüdü, vallah.

Qorxu, intizar var ağlar gözündə
Necə yalvarış var bircə sözündə.
Bir gün biləcəksən elə özün də
Sevgi ayrılıqdan güclüdü, vallah.

Nə fərqi yaxınam ya da uzağam
Hələki səninəm nə qədər sağam.
Ölsəm o dünyadan qayıdacağam
Sevgi ayrılıqdan güclüdü, vallah.

Göz yaşı əbəsdi çıxıb gedəcəm
Könlümü odlara yaxıb gedəcəm.
Mən sənə, hamıya sübut edəcəm
Sevgi ayrılıqdan güclüdü, vallah.

## Nə yaxşı sən varsan...

Gözlərim əbədi gözünə həsrət,
Qulağım bir şirin sözünə həsrət,
Özüm bu dünyanın özünə həsrət,
Nə yaxşı sən varsan, sevirəm səni.

Bilmirəm gözlərin necədir sənin ?
Saçların bir zülmət gecədir sənin,
Bilmirəm yaşını neçədir sənin,
Nə yaxşı sən varsan, sevirəm səni.

Çətin yollar keçdim, yaman yoruldum,
Sevgi bulağından içdim, duruldum,
Mən səni görmədim, sənə vuruldum,
Nə yaxşı sən varsan, sevirəm səni.

Sən hardan gəlirsən, yolun haradır?
Bəlkə də ürəyin, qəlbin yaradır,
Bəlkə taleyimtək saçın qaradır,
Nə yaxşı sən varsan, sevirəm səni.

Bircə yol üzünü görməsəm də mən,
Yolunda bircə gül dərməsəm də mən,
Könül açıb, könül verməsəm də mən,
Nə yaxşı sən varsan, sevirəm səni.

Dünya dağılmaz ki, sən mənim olsan,
Gəlib ürəyimi, könlümü alsan,
Bəlkə bir yuxusan, şirin xəyalsan,
Nə yaxşı sən varsan, sevirəm səni.

Sənə olan sevgim könül səsimdir,
Bir xəzan çağında yaz həvəsimdir,
Bilirəm, sən varsan mənim bəsimdir,
Nə yaxşı sən varsan, sevirəm səni.

Mən yelkənsiz qayıq, sən uzaq ada,
Sən at belindəsən, mənsə piyada,
Bircə təsəllim var mənim dünyada,
Nə yaxşı sən varsan, sevirəm səni...

## Xatirədir

Yenə yanır bu ocaq,
Yanıb, külü qalacaq.
Bilmirəm nə olacaq,
Olanı xatirədir...

Qar yağır narın-narın,
Üzü gülür dağların.
Bu yaşıl yarpaqların
Solanı xatirədir...

Ay çəmənin çiçəyi,
Niyə soldu ləçəyin?
Bu dünyanın gerçəyi,
Yalanı xatirədir...

Niyə çıxdıq yola biz,
Coşub-daşır bu dəniz.
Bir adadır sevgimiz,
Hər yanı xatirədir...

Xəyaldı, yoxsa yalan,
Gəlib keçdi nə zaman?
Sevginin ömrü bir an,
Qalanı xatirədir...

# İdman

## Əliş Nəzərov ağır atletika üzrə dünya çempionatında çıxışını başa vurub



Ficinin paytaxtı Suvada keçirilən gənclər arasında ağır atletika üzrə dünya çempionatı davam edir.

51 ölkədən 311 atletin (161 oğlan və 150 qız) iştirak etdiyi yarışda Azərbaycan yığma komandasının üzvləri də körpücük üzərinə çıxıblar. Kişilər arasında mübarizəyə Əliş Nəzərov qoşulub. O, 102 kiloqram çəki dərəcəsində yarışıb. Atletimiz toplam 318 kiloqram (143+175) nəticə ilə 7-ci yeri tutub.

## Güləşçimiz Zaur Əliyev erməni rəqibinə qalib gələrək Avropa çempionatının bürünc medalını qazanıb



Azərbaycan güləşçisi Zaur Əliyev İspaniyanın Pontevedra şəhərində keçirilən gənc güləşçilər arasında Avropa çempionatında bürünc medal qazanıb.

Çempionatda 55 kiloqram çəki dərəcəsində çıxış edən yunan-Roma güləşçimiz turnirə idiali başlayıb. Güləşçimiz ilk görüşdə Bolqarıstan idmançısına birinci hissə başa çatmadan qalib gəlib. Z.Əliyev növbəti görüşü də vaxtından əvvəl qələbə ilə başa vurub. Təmsilçimiz dörddəbir finalda Danimarka təmsilçisinə gücünü göstərərək adını yarımfinala yazdırıb. Finalın bir addımlığında Gürcüstan təmsilçisi ilə qarşılaşma gərgin idman mübarizəsi şəraitində keçib. Həmyerlimiz hesabda öndə olsa da, son dəqiqədə müdafiədə buraxdığı səhv ucbatından görüşdən məğlub ayrılıb.

Z.Əliyev bürünc medal uğrunda prinsipial qarşılaşmada Ermənistan güləşçisi ilə üz-üzə gəlib. Rəqibini məğlub edən güləşçimiz Avropa çempionatının bürünc medalına sahib olub. İdmançımız bu qələbə sayəsində qitə birinciliyində komandamızın aktivinə ilk medalı yazdırıb.

## MMA döyüşçümüz Tofiq Musayev növbəti qələbəsini qazanıb



MMA (qarışıq döyüş növləri) döyüşçümüz Tofiq Musayev (71 kq) peşəkar karyerasında növbəti qələbəsini qazanıb.

Döyüşçümüz Rizen liqasında rəqibi, UFC-nin tanınmış idmançılarından olan Daron Krikşenki (ABŞ) məğlub edib.

Yaponiyanın paytaxtı Tokioda baş tutan qarşılaşmada hakimlər qələbəni T.Musayevə veriblər. Bu, döyüşçümüzün peşəkar karyerasında 15-ci qələbəsi olub. Onun rəqibi isə 12-ci dəfə məğlubiyyətlə barışıb.

## Şəhriyar Məmmədyarov Norveçdə keçirilən şahmat turnirinə qələbə ilə başlayıb



Norveçin Stavanger şəhərində Azərbaycan şahmatçısı Şəhriyar Məmmədyarovun da mübarizə apardığı "Altibox Norway Chess 2019" superturnirinin birinci turuna yekun vurulub.

Bu nüfuzlu yarışın ilk turunda azərbaycanlı qrossmeyster amerikalı Fabiano Karuanaya qarşı mübarizə aparıb. Partiya heç-heçə başa çatıb, rapiddə şahmatçımız rəqibini məğlub edib (05:05 (1:0, rapid). Təmsilçimizin aktivində 1,5 xal var. İkinci turda Şəhriyar Məmmədyarov hindistanlı Vişvanatan Anandla mübarizə aparacaq.

Turun digər oyunlarında Maqnus Karlsen (Norveç) Vişvanatan Anand, Din Lijen (Çin) Uesli So (ABŞ), Levon Aronyan (Ermənistan) Aleksandr Qrişuka (Rusiya) qalib gəlib. Maksim Vaşe-Laqrav (Fransa) Yu Yangyiə (Çin) məğlub olub.

**AZƏRTAC-ın materialları əsasında**

**Baş redaktor**
polkovnik-leytenant
İlham BEHBUDOV

**Telefonlar**
Baş redaktor: (012) 510-71-97 (faks);
Baş redaktorun müavini: (012) 510-64-27;
Məsul katib: (012) 510-71-98;
Məktublar şöbəsi: (012) 510-64-28.

**Ünvanımız**
Bakı şəhəri, akademik Şəfaət Mehdiyev küçəsi 144, "Qızıl Şərq" hərbi şəhərciyi

**Növbətçi**
leytenant
Fuad CƏFƏROV

**Qəzetin hesabı**
Nərimanov Rayon Xəzinədarlığı
Kod: 200189
VÖEN: 1500428611

Qəzet həftədə iki dəfə (III-VI günlər) nəşr olunur. "Azərbaycan Ordusu" qəzeti kompüter mərkəzində səhifələnərək "Hərbi nəşriyyat"ın mətbəəsində hazır diapozitivlərdən çap olunur. Əlyazmalara rəy verilmir, təqdim edilən yazılar müəllifə qaytarılmır.
Qəzeti **mod.gov.az** saytından oxuya bilərsiniz.

Lisenziya № 361
Sifariş № 440
Nüsxə 3950